## Ölkəmizdə məşğulluq səviyyəsi yüksəlir

Bu gün Azərbaycan Respublikasının dövlət məşğulluq siyasətinin gücləndirilməsi bu sahədə mövcud olan problemlərin həllinə və əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə istiqamətlənmişdir. Yeni iş yerlərinin açılması və müvəqqəti sərbəstləşmiş işçi qüvvəsinin sosial müdafiəsi məsələləri sahəsində görülən tədbirlərlə yanaşı, bu gün əmək bazarının müasir səviyyədə qurulması, ölkənin əmək potensialından daha dolğun istifadə edilməsi dövlətin diqqət mərkəzində olan məsələlərdəndir. Bu məqsədlə 2006-2015-ci illəri əhatə edən Azərbaycan Respublikasının Məşğulluq Strategiyası qəbul edilmiş və qeyd olunan məsələlərin həllinə yönəlmişdir.

Yaxın onillikdə həyata keçiriləcək məşğulluq strategiyası bir-birini tamamlayan iki mərhələdə reallaşdırılır. 2006-2010-cu illəri əhatə edən birinci mərhələ artıq başa çatmışdır. Bu illərdə işsizliyin nəzərəçarpacaq dərəcədə azaldılması, işsizlərin, sosial həssas əhali təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının təkmilləşdirilməsi sahəsində tədbirlər həyata keçirilmişdir.

2011-2015-ci illəri əhatə edən ikinci mərhələnin fəaliyyət istiqaməti, əsasən, işçi qüvvəsinə tələbatın stimullaşdırılmasını təmin edən, yüksək beynəlxalq standartlara uyğun işgüzarlıq mühitinin formalaşmasına, struktur islahatlarının dərinləşdirilməsinə, investisiya fəallığının daha da artırılmasına və insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsinə yönəldilmişdir.

***Əmək yarmarkaları***

İşaxtaran və işsiz vətəndaşların, xüsusilə gənclərin layiqli işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri respublikanın bütün bölgələrində hər il təşkil olunan əmək yarmarkalarıdır. Dövlət Məşğulluq Xidmətindən mətbuata verilən məlumata əsasən, 2012-ci ildə respublikanın 55 şəhər və rayon mərkəzlərində əmək yarmarkaları təşkil edilib, 5 mindən çox vətəndaş işlə təmin olunub. Əmək yarmarkaları ilə yanaşı, paytaxtın 11 rayonunda ayda bir, bəzən isə iki dəfə olmaqla mini əmək yarmarkaları keçirilib və bu, ilin sonuna qədər davam etdiriləcək. Bununla yanaşı, 2007-ci ildən başlayaraq Bakı, Gəncə və Mingəçevir şəhərlərində fəaliyyət göstərən ali təhsil ocaqlarının məzun və tələbələrinə aldıqları ixtisaslar üzrə iş yerlərinə cəlb olunmaları məqsədi ilə «Karyerada ilk addım» devizi altında yarmarkalar keçirilir.

Cari ildə keçirilən belə yarmarkalarda 238 müəssisə tərəfindən 2097 boş iş yeri təqdim edilmiş, 538 nəfər məzun və tələbə işlə təmin olunmuşdur.

***İşsizlik müavinəti***

«Məşğulluq haqqında» Qanuna əsasən, işi və qazancı olmayan, işə başlamağa hazır olub rayon (şəhər) məşğulluq mərkəzlərində işaxtaran kimi qeydiyyata alınmış və işaxtaran kimi qeydiyyata alındıqdan sonrakı 10 gün müddətində münasib iş təklif edilməsi mümkün olmayan əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli vətəndaşlara müvafiq sənədləri təqdim etdiyi andan işsizlik statusu verilir və işsizlik müavinəti təyin edilir.

İşsiz statusu almış vətəndaşlar işsizliyin başlanmasından şəhər (rayon) məşğulluq mərkəzlərində işaxtaran kimi qeydiyyata alındığı gündən əvvəlki 12 ay ərzində 26 həftədən çox müddətdə haqqı ödənilən işə malik olduqda onların işsizlik müavinəti axırıncı iş yerindəki son 12 ay ərzində hesablanmış orta aylıq əməkhaqqının 70%-i məbləğində müəyyən edilir. Orta aylıq qazanca əsasən təyin olunmuş müavinətin məbləği müavinət təyin olunan dövr üçün respublika üzrə müəyyən edilmiş orta aylıq əməkhaqqının məbləğindən çox, təsdiq olunmuş müavinətin minimum məbləğindən isə az ola bilməz.

İşsiz statusu almış vətəndaşlar işsizliyin başlanmasından (şəhər) rayon məşğulluq mərkəzlərində işaxtaran kimi qeydiyyata alındığı gündən əvvəlki 12 ay ərzində 26 həftədən az müddətdə haqqı ödənilən işə malik olduqda onların işsizlik müvinəti təsdiq olunmuş müvinətin minimum məbləğində müəyyən edilir.

İşsiz statusu müəyyən olunan vaxtdan 12 ay keçdikdən sonra vətəndaş münasib işlə təmin olunmayıbsa, onun təkrarən müavinət almaq hüququ var. Təkrar müavinət təsdiq edilmiş müavinətin minimum məbləğində müəyyən olunur. İşsizin himayəsində 18 yaşına çatmamış uşağı olduqda işsizlik müavinətinin məbləği hər bir uşaq üçün müavinətin 10%-i məbləğində, 50%-indən

çox olmamaq şərti ilə artırılır. 2012-ci ilin 9 ayı ərzində Dövlət Məşğulluq Xidməti tərəfindən 3352 nəfərə işsizliyə görə müavinət təyin edilmişdir.

***Gənclərin peşəyönümü tərbiyəsi***

Ş.Xəlilov qeyd edir ki, hələ 2002-ci ildə Azərbaycan Höküməti ilə BMT-nin İnkişaf Proqramı (UNDP) arasında imzalanmış «Milli Sosial Müdafiə Sisteminin İnkişafı» layihəsi çərçivəsində «Peşəyönümü işinin təşkilinə dair metodiki vəsait» və «İşaxtaran və işsiz vətəndaşların peşə meyillərinin müəyyən edilməsi üçün multimedia test proqram sistemi» hazırlanmışdır və Məşğulluq Xidməti orqanlarında müvəffəqiyyətlə istifadə olunur.

DMX rəsmisinin bildirdiyinə görə, gənclərin peşə seçiminə kömək məqsədi ilə yaradılmış bu sistem peşəyönümü üzrə Məşğulluq Xidməti orqanları mütəxəssisləri, psixoloqlar üçün köməkçi bir vasitədir: «Təqdim olunan sistem gənclərə öz meyil və maraqlarına uyğun peşələr haqqında müstəqil surətdə məlumat əldə etməyə, Məşğulluq Mərkəzinin və orta ümumtəhsil məktəblərinin peşəyönümü üzrə mütəxəssislərinə isə gənclər üçün peşə professioqramması qurarkən zəruri diaqnostik informasiyanı asanlıqla əldə etməyə, az vaxt ərzində daha çox gəncə peşəyönümü üzrə səriştəli məsləhət verməyə, testləşmənin nəticələrini kompüterin yaddaşında saxlamaqla testdən keçənlər haqqında statistik məlumatlar toplamağa, eləcə də bu sistemdən peşələr üzrə məlumat bankı kimi istifadə etməyə imkan verir».

2011-ci ildə isə Dünya Bankı ilə Azərbaycan Höküməti ilə birgə həyata keçirilən «Sosial Müdafiənin İnkişafı» layihəsinin «Gənclər üçün peşəyönümü xidmətləri» proqramı çərçivəsində DMX-nin əməkdaşları üçün seminar məşğələlər təşkil edilmiş, Peşəyönümü Məsləhət Mərkəzinin yaradılması istiqamətində əməli-metodiki kömək göstərilmiş, əmək bazarında rəqabət qabiliyyətli 52 peşə və ixtisas üzrə peşə profili hazırlanmışdır.

DMX orqanları tərəfindən aparılan səmərəli fəaliyyətin nəticəsi olaraq respublikanın bütün şəhər və rayonlarının orta ümumtəhsil məktəbləri peşəyönümü xidməti ilə əhatə olunmuş, lazımi metodiki vasitələr, anket-sorğu materialları ilə təmin edilmişdir. Aparılan işlərin nəticəsi olaraq, respublika üzrə peşəyönümü məsləhətlərinə cəlb olunanların sayı artmaqda davam edir. Gəncə, Mingəçevir, Naxçıvan şəhərlərində, eləcə də Bakı və Göyçay Regional Peşə Tədris Mərkəzlərində fəaliyyət göstərən «Peşəyönümü metodiki kabinetlər»də aparılan işlər də daxil olmaqla, 2009-cu ildə peşəyönümü məsləhətlərə cəlb olunanların sayı 20882 nəfər olduğu halda, 2010-cu ildə bu tədbirə cəlb olunanların sayı 108486 nəfər, 2011-ci ildə 108922 nəfər, 2012-ci ilin 9 ayı ərzində isə 72556 nəfər təşkil etmişdir.

Arzu İBRAHİMOVA